## VƏKİLLİK: BEYNƏLXALQ STANDARTLAR VƏ REALLIQLAR

16-17 iyun 2005-ci il

### Yekun Bəyanat

«Vəkillik: beynəlxalq standartlar və reallıqlar» konfransının iştirakçıları

1. Milli Məclisin “Vəkillər və vəkillik fəaliyyəti haqqında» Qanuna vacib və gərəkli dəyişikliklər etməsini və bununla da, lisenziya almış bütün hüquqşünasların Vəkillər Kollegiyasına üzv olmaq imkanı qazanmasını təqdir edir;

2. Vəkillər Kollegiyasının Rəyasət Heyətini vəkilliyə aid cari məsələləri müzakirə etmək üçün Kollegiyaya yenicə qəbul edilmiş lisenziyalı hüquqşünasların və bu yaxınlarda keçirilmiş qəbul imtahanlarını müvəffəqiyyətlə vermiş hüquqşünasların iştıraki ilə Ümumi Yığıncaq keçirməyə çağırır;

3. Qanunun aliliyinin və hüquq toplumunun özəl maraqlarının təmin edilməsində Vəkillər Kollegiyasının səmərəli bir vasitəyə çevriləcəyinə ümidvar olduqlarını bildirirlər.

Qanuna edilən dəyişikliklər beynəlxalq təcrübəyə əsaslanaraq Azərbaycanda vəkilliyin inkişaf etdirilməsi məqsədilə hüquqşünasların konstruktiv şəkildə fəaliyyət göstərməsi üçün şərait yaradılmasına xidmət etməlidir.

**Bakı, 17 iyun 2005-ci il**